

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 109 (23.271)

14 iyun 2019-cu il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 13-də Avropa İttifaqının Avropa Qonşuluq Siyasəti və Genişlənmə Danışıqları Direktorluğunun komissarı Yohannes Hanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi qeyd olunub, münasibətlərimizin hazırkı vəziyyəti və perspektivləri müzakirə edilib.

Dövlətimizin başçısı Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi ilə bağlı mühüm işlərin görüldüyünü və artıq yaxşı nəticələrin əldə edildiyini bildirib. Prezident İlham Əliyev müxtəlif sahələrdə, o cümlədən sənaye, kənd təssüratı, turizm və digər sahələrdə nailiyyətlər əldə edildiyini vurğulayaraq, bütün bunların ölkənin davamlı iqtisadi inkişafı üçün yaxşı əsas yaratdığını deyib.

Avropa İttifaqının Avropa Qonşuluq Siyasəti və Genişlənmə Danışıqları Direktorluğunun komissarı Yohannes Han Azərbaycanı Avropa İttifaqı üçün aparıcı tərəfdaş ölkələrdən biri kimi qiymətləndirib və Avropa İttifaqının ölkəmiz ilə bütün sahələrdə əməkdaşlığa xüsusi diqqət yetirdiyini vurğulayıb.

Görüşdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, beynəlxalq və regional təhlükəsizlik məsələləri müzakirə olunub.



Milli Qurtuluş – 26

## Müstəqil dövlətçiliyin təntənəsi

***Çoxəsrlik dövlətçilik tarixinə malik olan Azərbaycan xalqı XX əsrin əvvəllərində Xalq Cümhuriyyətinin (AXC) yaradılması ilə müstəqil demokratik dövlət qurmaq imkanlarına malik olduğunu nümayiş etdirmişdir. Dövlətçiliyimizin təşəkkül yolunu təhlil edən ulu öndər Heydər Əliyev 2003-cü il mayın 27-də Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 85 illiyi ilə əlaqədar Azərbaycan xalqına müraciətində milli dövlətçiliyin bu mühüm mərhələsinə qiymət verərək demişdir: "Müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti ölkəmizin çoxəsrlik sosial-iqtisadi, ictimai-siyasi və mədəni inkişafının, xalqımızın milli oyanışı və dirçəlişi proseslərinin məntiqi nəticəsi kimi meydana çıxmışdır. Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın siyasi şüur səviyyəsinin, intellektual və mədəni potensialının, yüksək istedad və qabiliyyətinin göstəricisi idi".***

Azərbaycan Xalq Cümhuriyyəti Avropanın demokratik dəyərləri ilə Şərq mədəniyyətinin xüsusiyyətlərini və milli ictimai fikri üzvi şəkildə birləşdirən yeni dövlət – cəmiyyət nümunəsi idi. Cəmi 23 ay fəaliyyət göstərməsinə baxmayaraq, ilk respublika dövründə həyata keçirilən tədbirlər müstəqil dövlətçiliyimizin əsaslarının yaradılması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb etmişdir. Demokratik hüquq və azadlıqların bərqərar olması, etnik və dini mənsubiyyətdən asılı olmayaraq, bütün vətəndaşlara bərabər hüquqlar verilməsi, Azərbaycan dilinin dövlət dili elan edilməsi, təhsil və mədəniyyətin inkişafına xüsusi diqqət göstərilməsi, nizami milli ordunun, təhlükəsizlik strukturlarının qurulması və sair işlər Xalq Cümhuriyyəti hökumətinin yürütdüyü siyasətin miqyasını, mahiyyət və mənasını səciyyələndirir.

Görkəmli dövlət xadimi Heydər Əliyevin zəngin və dərin məzmunlu siyasi irsində Azərbaycanın çoxəsrlik dövlətçilik tarixi və ənənələrinə, o cümlədən müstəqil dövlətimizin varisi olduğu Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə və tarixi roluna münasibət olduqca böyük əhəmiyyətə malikdir. İstər Sovetlər İttifaqı zamanı daşıdığı yüksək dövlət vəzifələrində olduğu zamanlar, istərsə də 1990-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, sonra isə Ali Məclisin Sədri olduğu vaxtlar və Azərbaycan Respublikasına rəhbərlik etdiyi on il ərzindəki dövrdə Azərbaycançılıq və milli dövlətçilik ideyaları ulu öndərin nəhəng ictimai-siyasi fəaliyyətinin ideya əsaslarını təşkil etmişdir.

Xalqımızın ulu öndəri Heydər Əliyevin 1990-cı ildə Azərbaycana qayıdışı, təqiblərə məruz qalıb Bakıdan Naxçıvana getməsi, ilk növbədə, Naxçıvan Muxtar Respublikasının qorunması, onun düçar olduğu burulğandan və düşmən təcavüzündən xilas edilməsində həlledici rol oynamışdır. O dövrdə Naxçıvanda yaranmış çox mürəkkəb vəziyyətə baxmayaraq, ölkəmizdə demokratik dövlət quruculuğunun ilk və qətiyyətli addımları ulu öndər



tərəfindən məhz muxtar respublikada atılmışdır. Heydər Əliyevə xalqın yeganə rəhbəri və xilaskarı kimi baxan Naxçıvan əhalisinin iradəsi ilə 3 sentyabr 1991-ci il tarixdə Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi isə Azərbaycan dövlətçiliyinin ilk atributlarının qəbulundan tutmuş köklü inqilabi islahatlar da daxil olmaqla, müstəqilliyə aparan yolun və vasitələrin müəyyən edilməsinin meydana qoyulması ilə nəticələnmişdir.

Məhz görkəmli dövlət xadimi Heydər Əliyevin dərin zəkası və müdrikliyi, sovet idarə sisteminin bütün incəliklərini dərindən bilməsi nəticəsində Naxçıvan Muxtar Respublikası ərazisindəki sovet ordusu hissələrinin nizamlı şəkildə yola salınması, həmin hərbi hissələrin döyüş texnikası və silahlarının Naxçıvan hakimiyyətinə verilməsi ilə başa çatmışdır. Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin fərmanı ilə Azərbaycanda ilk dəfə olaraq dövlət hərbi qurumu – Naxçıvan Dövlət Müdafiə Komitəsi yaradılmış və sovet hərbi hissələrinin texnika və silahları həmin quruma təhvil verilmişdir. Beləliklə, Naxçıvanın müdafiəsinin təmin olunması üçün ən zəruri addımlar atılmışdır. Bir çox könüllü peşəkar hərbçilər bu dahi şəxsiyyətin çağırışlarına yüksək vətənpərvərlik ruhu ilə səs verərək peşəkar səviyyədə hərbi sahədə çalışmağa qoşulmuşdur.

Heydər Əliyevin sədrliyi ilə keçən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında hələ 1990-cı ilin 17 noyabrında muxtar respublikanın adından "sovet sosialist" sözlərinin çıxarılması və Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli, ay-ulduzlu bayrağının iclas salonuna gətirilib sovet bayrağını əvəz etməsi müstəqil dövlətçiliyin bərqərar edilməsi uğrunda mübarizə yolunda ilk mühüm tarixi addımlar sayıla bilər. Bundan başqa, Heydər Əliyev yeni ittifaq adı ilə SSRİ-ni dirçəltmək cəhdlərini qətiyyətlə rədd edərək deyirdi: ***"Mən yeni ittifaqa daxil olmağın və bunun üçün referendum keçirməyin heç bir şərt qoymadan əleyhinəyəm. Azərbaycan Respublikası iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdır".***

Heydər Əliyevin uzaqgörən və məqsədyönlü addımlarından biri də qonşu ölkələrin rəhbərləri ilə təmasa keçərək Naxçıvan Muxtar Respublikasının əhalisini iqtisadi fəlakətdən qurtarmaqdan ibarət idi. İqtidarda olan başabəla Xalq Cəbhəsi hakimiyyəti nə qədər qısqanclıqla yanaşsa da və müxtəlif vasitələrlə mane olmağa çalışsa da, Azərbaycan dövlətinin ilk xarici siyasət addımları Naxçıvanda atılmışdır.

Heydər Əliyev Ali Məclisin deputatlarına, alimlərə, jurnalistlərə təkidlə Naxçıvanın yaxın tarixini, Moskva və Qars müqavilələrini və həmin dövrün tarixi dərslərini öyrənməyi tövsiyə etmiş, əvvəlki tarixi təcrübələri nəzərə alaraq ölkəmizin bu qədim guşəsini qoruyub saxlamaq üçün Türkiyə Cümhuriyyəti və İran İslam Respublikası ilə həmin ölkələrin dövlət başçıları səviyyəsində görüşlər keçirmiş, sənədlər imzalamış və qarşıya qoyduğu məqsədlərə nail olmuşdur. Belə uzaqgörən tədbirlərin nəticəsi idi ki, Türkiyə Cümhuriyyətinin prezidenti Süleyman Dəmirəl Naxçıvana gəlmiş, Araz çayı üzərində Naxçıvan Muxtar Respublikasını, beləliklə də, Azərbaycanı Türkiyə ilə bir-birinə bağlayan "Ümid" körpüsünün rəsmi açılışında iştirak etmişdir. Heydər Əliyevin İran prezidenti Haşimi Rəfsəncaninin dəvəti üzrə Tehranda səfərdə olması, blokadada olan muxtar respublikaya İran tərəfindən zəruri yardımlar göstərilməsinə nail olması da müstəqil ölkəmizin xarici siyasətinin xüsusi səhifəsidir. Bakıda bütün bunları qısqanclıqla izləyən, hətta əngəllər yaradan qüvvələrə məhəl qoymayan ulu öndər öz diplomatik tədbirləri ilə erməni işğalçılarını da Naxçıvana həmlə etməkdən çəkindirməyi bacarmışdır.

Xalqın böyük xilaskarı olan Heydər Əliyevə qarşı bir neçə dəfə çevriliş cəhdləri edən ozamankı ölkə hakimiyyətinin bəzi nümayəndələri hətta onu Naxçıvan rəhbərliyindən uzaqlaşdırmaq niyyəti ilə buranın muxtar respublika statusunu ləğv etməyi, bununla guya Azərbaycan Respublikasının unitarlığını "təmin etməyi" irəli sürürdülər. Hakimiyyət nümayəndələrinin uğursuz cəhdləri ulu öndər tərəfindən qətiyyətlə dəf edilmiş, Ali Məclisdəki müzakirələrdə bu kimi iddiaların Azərbaycan dövlətçiliyinə zərbə vurması, muxtar respublika statusunun Naxçıvanın xilas yolu, təhlükəsizliyinin təminat yolu, inkişaf yolu olduğu diqqət mərkəzinə çəkilmişdir.

Məlum olduğu kimi, 1990-cı illərin əvvəllərindən ölkədə başlayan hakimiyyət böhranı bu və ya digər şəkildə 1993-cü ilin 15 iyun tarixinədək davam etmiş və xarici təsirlərlə yanaşı, xalqa zidd daxili qüvvələrin də müstəqilliyin ilk və çətin illərində təxribatçı fəaliyyətləri, kənardan qızışdırılıb dəstəklənən bölücülük, separatçılıq hərəkətləri, millətin və dövlətin taleyinə hakimiyyətdəki müəyyən qüvvələrin laqeydliyi ölkəmizi dərin uçurumun bir addımlığına gətirib çıxarmışdı. Daxili çəkişmə və ziddiyyətlər, hakimiyyətdaxili şəxsi və qrup mənafelərinin toqquşması xalqı və dövləti çıxılmaz bir xaosa sürükləmişdi. Belə bir mürəkkəb ictimai-siyasi şəraitdə ulu öndərin Naxçıvandan Bakıya gəlişi, sözün əsl mənasında, mühüm tarixi əhəmiyyətə malik olan böyük Qurtuluş missiyası idi. 15 iyun 1993-cü ildə Heydər Əliyevin Azərbaycan Respublikasının Milli Məclisinin Sədri seçilməsi, sonra Prezident səlahiyyətlərinin icrasına başlaması, xalqın yekdil səsverməsi ilə 3 oktyabr 1993-cü il tarixdə ölkəmizin rəhbəri vəzifəsinə seçilməsi Azərbaycan xalqının dövlət müstəqilliyində, eləcə də dövlətçiliyin qorunub saxlanması və inkişaf etdirilməsində tarixi dönüş nöqtəsi olmuşdur.

Məhz görkəmli dövlət xadimi Heydər Əliyevin daxili və xarici siyasət kursunun məqsədyönlülüyünə, dönməzliyinə və perspektivliyinə inam 1994-cü ilin sentyabrında, hakimiyyət böhranından cəmi bir il sonra, haqlı olaraq "Əsrin müqaviləsi" adını almış neft kontraktının bağlanmasına yol açmışdır. Heydər Əliyev bu barədə demişdir: ***"Biz bu müqaviləni imzalamaqla Azərbaycan Respublikasının suveren hüquqlarının bərqərar olduğunu, xalqımızın öz sərvətlərinə özünün sahib olduğunu dünyada bir daha nümayiş etdiririk. Biz bu müqaviləni imzalamaqla Azərbaycan Respublikası ilə dünyanın inkişaf etmiş dövlətləri, onların ən böyük***

Ardı 2-ci səhifədə

***şirkətləri arasında əlaqələr yaradır, Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına, azad bazar iqtisadiyyatına qoşulması üçün əsas yaradırıq. Azərbaycan Respublikasının müstəqil demokratik, hüquqi dövlət olduğunu nümayiş etdiririk".***

Məlumdur ki, yeraltı təbii sərvətlərimizin müstəqil dövlətimizin inkişafına yönəldilməsi məqsədinə xidmət edən neft siyasətinin əsası hələ Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1970-ci illərdən qoyulmuşdur. Belə ki, ulu öndər sovet hakimiyyəti dövründə böyük uzaqgörənliklə öz ölkəsinin, xalqının taleyini düşünərək dənizdə Dərin Özüllər Zavodunun məhz Azərbaycanda yaradılmasına nail olmuşdur. Halbuki o zaman rəsmi Moskva bu zavodu Həştərxan vilayətində qurmaq niyyətində idi.

Ulu öndər Heydər Əliyev 14 iyul 1969-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsinə irəli sürüləndə ümumittifaq miqyasında sosial-iqtisadi inkişafın səviyyəsinə görə sonuncu yerlərdən birini tutan Azərbaycanın vəziyyəti olduqca çətin idi. Heydər Əliyevin ideyaları, fikirləri, proqnozları əsasında, məqsədyönlü təşkilatçılığı, rəhbərliyi və tələbkarlığı nəticəsində qısa zaman ərzində keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyan Azərbaycanda ictimai-siyasi, sosial-iqtisadi və elmi-mədəni sahələrdə dinamik inkişaf, görünməmiş artım templəri əldə olunmuşdur. Çox sonralar Heydər Əliyev ötən əsrin 70-ci illərində həyata keçirdiyi islahatları xatırlayaraq demişdir: ***"1970-1983-cü illər Azərbaycanın quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olmuşdur. Baş verən dəyişikliklərin miqyasına, iqtisadi və sosial sahələrdə aparılan dərin struktur islahatlarının xarakterinə, xalqın maddi rifah halının keyfiyyətcə yeni mərhələyə keçirilməsinə görə doqquzuncu, onuncu və on birinci beşilliklər Azərbaycanın yeni tarixində ən mühüm yerləri tutur..."***

Hakimiyyətə gəldiyi ilk gündən sovet sisteminin siyasətini dərindən bilən ümummilli lider Heydər Əliyev dövlətçiliyin və milli-mənəvi dəyərimizin əsas tərkib hissəsi kimi dil məsələsinə xüsusi diqqətlə yanaşmışdır. Bu elə bir dövr idi ki, dövlət idarəçiliyindən, inzibati idarə sistemlərindən, elmdən, mədəniyyətdən, təhsildən sıxışdırılan milli dillər məişət səviyyəsinə endirilmiş, bütün müttəfiq respublikalarda olduğu kimi, Azərbaycanda KP-nin qurultayları, MK-nın plenumları bir qayda olaraq rus dilində aparılmışdır. Belə bir çətin şəraitdə Heydər Əliyev 1 noyabr 1969-cu ildə Azərbaycan Dövlət Universitetinin 50 illiyinə həsr edilmiş təntənəli yığıncaqda ana dilində çıxış etməklə Azərbaycan dilinin təbliğinin əsasını qoymuşdur. Eyni zamanda 1978-ci ildə Azərbaycan dilinin Azərbaycan Sovet Respublikasının Konstitusiyasına dövlət dili kimi daxil edilməsi Heydər Əliyevin böyük nüfuzunun və möhkəm siyasi iradəsinin qələbəsi kimi qeyd edilməyə layiqdir.

Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə 1969-1982-ci illərdə partiya və hökumətin qəbul etdiyi çoxsaylı qərarlar və sərəncamlar dövlət əhəmiyyətli proqramların həyata keçirilməsi bu dövrün Azərbaycanın dövlətçilik tarixinin xüsusi mərhələsinə çevrilməsinə səbəb olmuşdur. Həqiqətən, həmin dövrdə Sovet Azərbaycanının tarixinə ən parlaq quruculuq illəri kimi daxil olmuşdur. Respublikanın iqtisadiyyatında, sənayesində, kənd təsərrüfatında qazanılmış uğurlarla yanaşı, elmi-texniki tərəqqinin nailiyyətlərinin sənayedə tətbiqi böyük nailiyyətlərlə nəticələnmişdir. Ulu öndərin müdrik və uzaqgörən siyasəti nəticəsində Azərbaycan o dövrdə bütün göstəricilər üzrə keçmiş SSRİ-də qabaqcıl respublikalardan biri səviyyəsinə çatdırılmışdır. O illərdə Heydər Əliyevin sosializm cəmiyyəti şəraitində mərkəzin təzyiqlərini dəf edərək milli-mənəvi dəyərlərimizin dirçəldilməsi, qorunması və inkişaf etdirilməsi istiqamətində yürütdüyü məqsədyönlü siyasət xalqımızın milli kimliyinin saxlanmasına və inkişaf etdirilməsinə xidmət etmişdir. Həmin siyasətin vaxtilə səpdiyi toxumlar sonralar xalqımızı milli-azadlıq mübarizəsinə, müstəqil dövlət quruculuğuna, milli dövlətçiliyimizin bərqərar olmasına aparan yollarda özünün bəhrəsini vermişdir. Bütün bunlar ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci mərhələsində xalqımızın milli özünüdərkinin təşəkkülü uğrunda apardığı uğurlu siyasət nəticəsində mümkün olmuşdur.

1993-cü ilin iyununda Heydər Əliyev müstəqil Azərbaycan dövlətində xalqımızın iradəsi ilə hakimiyyətin məsuliyyətini öhdəsinə götürəndə dövlətçiliyimizin taleyinin həll olunduğu ölüm-dirim zamanı idi. Lakin ümummilli lider ölkəni labüd fəlakətlərdən qurtaracağına əmin idi, xalq da Heydər Əliyevə inanır, bu mürəkkəb vəziyyətdən çıxış yolunu ancaq onda görürdü. Bu, həmin illər idi ki, ölkəmizdə müstəqilliyin elan edilməsindən dərhal sonra, öncə kremlpərəst, sonra isə radikal müxalifətçi qüvvələrin hakimiyyətə yiyələnmələri, aparılan tamamilə yanlış daxili və xarici siyasət nəticəsində müstəqilliyin itirilmə təhlükəsi yaranmışdı. Məhz Heydər Əliyev Azərbaycan xalqını və respublikamızı dərin ictimai-iqtisadi böhrandan çıxarmış, böyük təhlükələrdən xilas etmiş, gələcək inkişafın mühüm təməllərini atmışdır. Bu mənada, sovet dövründən başlanan və müstəqillik illərində davam etdirilən ölkəmizin bütöv bir epoxası Heydər Əliyevin adı ilə bağlıdır. Məhz həmin illərdən xalqımızın şüurunda Azərbaycançılıq ideyası yaranmağa başlamışdır. Müstəqillik illərində də ulu öndər deyirdi: ***"İstər bir azərbaycanlı, Azərbaycan Respublikasının vətəndaşı, istərsə də onun rəhbəri, Prezidenti kimi mənim həyat amalım yalnız Sizə, bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olmuşdur".***

Şübhə yoxdur ki, bütövlükdə, milli ideologiyamız olan Azərbaycançılığın milli dövlətçiliyə tətbiqi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. İlk dəfə 2002-ci ildə ulu öndər Dünya Azərbaycanlılarının I Qurultayında Azərbaycançılığı Azərbaycanın milli dövlət ideologiyası kimi müəyyən etmişdir. Heydər Əliyevin bu barədə dahiyanə şəkildə ifadə etdiyi aşağıdakı fikirlər dillər əzbərinə çevrilmiş, atalar sözü kimi qəbul edilmişdir: ***"Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Müstəqil Azərbaycan dövlətinin ideyası Azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz Azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq".***

Bütün bunlar deməyə əsas verir ki, görkəmli dövlət xadimi Heydər Əliyev daim Azərbaycanın inkişaf etməsi üçün çalışmış və xalqımızın bugünkü uğurlarının təməlini düzgün, düşünülmüş prinsiplər üzərində qurulmasında öz bilik və bacarığını əsirgəməmişdir. Yəni ulu öndər öz xatirələrində də qeyd etdiyi kimi: ***"1970-ci illərdə görülən işlər, yaradılan bu böyük iqtisadiyyat sənaye potensialı və neft sənayesi sahəsində görülən işlər, yaranmış potensial Azərbaycan Respublikasının dövlət müstəqilliyinin əsasıdır. Bu gün bəyan etmək istəyirəm ki, o illərdə məhz Azərbaycanın gələcəyini, bu gününü, müstəqilliyini düşünürdüm. Bu işləri görərkən mən əmin idim ki, onlar Azərbaycanın sərbəst, müstəqil yaşaması üçün əsas yaradır".***

Ulu öndər Heydər Əliyev hər bir zaman, hər bir şəraitdə milli-mənəvi dəyərlərə böyük önəm vermişdir. Dünya miqyaslı siyasi və dövlətçilik təfəkkürünə, zəngin və qətiyyətli dövlət idarəçilik təcrübəsinə, polad iradəyə, ən çətin və çıxılmaz vəziyyətlərdə belə, tükənməz əzm və qüdrətə malik olan Heydər Əliyev bütün həyatını həsr etdiyi doğma Vətəni Azərbaycana, Azərbaycan xalqının əsrlərboyu yaratdığı zəngin mənəvi-ədəbi irsə qırılmaz tellərlə bağlı idi. O, xalqımızın həm şifahi xalq ədəbiyyatını, həm də klassik ədəbi irsini çox yaxşı bilir və dəyərləndirirdi.

Azərbaycan Xalq Cümhuriyyətinin siyasi varisi olan müstəqil respublikamız həələ 1991-ci ildə müstəqilliyini dünyaya bəyan edərkən sivil, demokratik, hüquqi dövlət quracağı, hakimiyyətlərin bölgü prinsipinə sadiq qalacağı ilə əlaqədar üzərinə ciddi öhdəliklər götürmüşdür. Ulu öndər Heydər Əliyevə qədər hakimiyyətdə olan qüvvələr Azərbaycanın müstəqilliyinin əsas atributlarından olan Konstitusiyanın qəbulu istiqamətində heç bir addım ata bilməmişdilər. Ulu öndər ölkədəki ictimai-siyasi sabitliyi və qanunçuluğu bərpa etdikdən dərhal sonra müstəqil dövlətin ilk milli Konstitusiyanın qəbulu istiqamətində qətiyyətli addımlar atmışdır. Böyük dövlət xadiminin təşəbbüsü və rəhbərliyi altında, eyni zamanda demokratik cəhətdən inkişaf etmiş dövlətlərin mütərəqqi təcrübəsi əsasında hazırlanan, 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilən Əsas Qanunumuz – Azərbaycan Respublikasının Konstitusiyası milli dövlətçiliyimizin inkişafında yeni mərhələyə çevrilmiş, tarixə Heydər Əliyev Konstitusiyası kimi daxil olmuşdur.

Ölkəmizdə müstəqil dövlətçilik siyasətini XXI əsrin qlobal çağırışları şəraitində, eləcə də dünyada geosiyasi maraqların toqquşduğu, dünya nizamında proqnozlara sığmayan kəskin dəyişikliklərin baş verdiyi mürəkkəb şəraitdə inamla və müvəffəqiyyətlə davam etdirən Prezident cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan dövlətinin həyata keçirdiyi məqsədyönlü daxili və xarici siyasət, son on altı ildə sosial-siyasi inkişafın bütün sahələrində qazanılan uğurlar Azərbaycan Respublikasının tarixi yolunu uğurla davam etdirdiyini nümayiş etdirir. Artıq Azərbaycan ulu öndər Heydər Əliyevin yolunu daha da inkişaf etdirərək böyük nailiyyətlərə imza atmışdır. Möhtərəm Prezidentin apardığı müstəqil siyasət Azərbaycana böyük inkişaf və başucalığı bəxş edir. "Əsrin müqaviləsi"ni tamamlayan Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum kəmərləri yeni tarixi epoxanın möhtəşəm magistrallarıdır. Bakı-Tbilisi-Qars Dəmir İpək Yolu tarixi İpək Yoluna Prezident İlham Əliyevin möhtəşəm əlavəsidir. Regionların inkişaf etdirilməsi üzrə Dövlət proqramları və həmin proqramların həyata keçirilməsi istiqamətində əldə edilmiş böyük nəticələr İlham Əliyev erasının tarixi nailiyyətidir.

***Naxçıvan Muxtar Respublikasının müstəqillik illərində başdan-başa yenidən qurulması, iqtisadi inkişaf sahəsində Azərbaycanın regionları arasında iki dəfə birinci yerə çıxması dövlətimizin böyük uğurları sırasında mühüm yer tutur. Aparılan uğurlu müstəqil xarici siyasət, multikulturalizm və tolerantlıq, islam həmrəyliyi siyasəti İlham Əliyev dövrünün böyük uğurlarındandır. Bu gün Azərbaycanın postsovet məkanının və regionun lider dövlətinə çevrilməsi Heydər Əliyev siyasətinin və müstəqil dövlətçiliyinin təntənəsidir. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin inkişaf etdirilməsi və daha da möhkəmləndirilməsi ölkəmizin işıqlı sabahlarına böyük imkan yaradır.***

**Rza TALIBOV**
***Bakı Dövlət Universitetinin dosenti,***
***Batumi Dövlət Universitetinin fəxri doktoru, siyasi elmlər üzrə fəlsəfə doktoru***
***"Azərbaycan" qəzeti***
***13 iyun 2019-cu il***

## Naxçıvan şahmatçıları beynəlxalq yarışlarda uğurla çıxış edirlər



*31 may-8 iyun tarixlərində Rumıniyanın Mamaia şəhərində keçirilən şahmat üzrə məktəblilər arasında Avropa çempionatında Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının 4 zəka sahibi də mübarizə aparıb.*

İyunun 13-də Naxçıvan Dövlət Universitetində çempionatdan uğurla qayıdan şahmatçılarla görüş keçirilib.

Azərbaycan Respublikası Şahmat Federasiyasının vitse-prezidenti, Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədri Seymur Talıbov çıxış edərək deyib ki, şahmat idman növü olmaqla yanaşı, uşaqların zehni inkişafında da mühüm rol oynayır. Muxtar respublikada bütün sahələrlə yanaşı, şahmatın da inkişafı daim diqqət mərkəzindədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində son illər Naxçıvanda şahmatın inkişafı sahəsində böyük nailiyyətlər qazanılır. Muxtar respublikanın bütün məktəblərində şahmatın tədris olunması, rayonlarda şahmat məktəblərinin fəaliyyət göstərməsi Naxçıvanda dünya əhəmiyyətli şahmatçıların yetişməsi üçün əsaslı zəmin yaradıb. Uğurla başa çatan "Naxçıvan 2019" Beynəlxalq Şahmat Festivalı Naxçıvanın beynəlxalq şahmat mərkəzinə çevrildiyini bir daha təsdiq etdi. Artıq naxçıvanlı şahmatçılar beynəlxalq turnirlərdə, dünya və Avropa birinciliklərində yüksək nəticələr əldə edirlər. Seymur Talıbov yaradılan hərtərəfli şəraitdən bəhrələnməyi, yarışlara daha ciddi və səylə çalışmağı tövsiyə edib.

Naxçıvan Şahmat Mərkəzinin direktoru Emin Hacıyev və mərkəzin digər müəllimləri muxtar respublikada şahmatın inkişafı üçün yaradılan şəraiti yüksək qiymətləndirib, bundan sonrakı yarışlara daha böyük məsuliyyətlə hazırlaşacaqlarını qeyd ediblər.

Azərbaycan Respublikası Şahmat Federasiyasının vitse-prezidenti, Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədri Seymur Talıbov şahmatçıları və onların müəllimlərini mükafatlandırıb.

Qeyd edək ki, şahmat üzrə məktəblilər arasında Avropa çempionatında oğlanlardan 9 yaş qrupunda şahmatçımız Əli Məmmədli 50 zəka sahibi arasında 9 mümkün xaldan 5,5-ni toplayıb və qitə birinciliyini 13-cü pillədə başa vurub. 11 yaşlı oğlanların iştirak etdiyi qrupda İlkin Qəbulov 5,5 xalla çempionatı 15-ci pillədə başa vurub. 15 yaşlı qızların iştirak etdiyi qrupda muxtar respublikanı Nəsrin Babayeva təmsil edib. Şahmatçımız 4 xal toplayaraq qitə birinciliyini 14-cü yerdə tamamlayıb. Birincilikdə ən uğurlu nəticəyə isə 17 yaşlı FİDE ustamız Sadiq Məmmədov imza atıb. Keçirdiyi 9 görüşdən 6,5 xal toplayan zəka sahibimiz Avropa çempionatında üçüncü olub.

***"Şərq qapısı"***

## Elmi konfrans



AMEA Naxçıvan Bölməsində 15 İyun – Milli Qurtuluş Günü ilə əlaqədar "Ulu öndər Heydər Əliyev və Azərbaycanın xilaskarlıq missiyası" mövzusunda keçirilən elmi konfransda bölmənin sədri, akademik İsmayıl Hacıyev Azərbaycanın müasir dövr tarixinə qızıl hərflərlə yazılan 15 İyun – Milli Qurtuluş Günü tarixinin əhəmiyyətindən danışıb. Bildirib ki, ümummilli lider Heydər Əliyev hakimiyyətə yenidən qayıdışı ilə Milli Qurtuluşumuzun əsasını qoyub. Dahi öndərin misilsiz xidmətləri nəticəsində azad, müstəqil, sivil bir dövlət qurulub.

Qeyd olunub ki, ulu öndərin milli maraqlara əsaslanmaqla həyata keçirdiyi çoxşaxəli siyasət strategiyası bu gün onun layiqli davamçısı Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə başçısının qloballaşan dünyanın tələbinə uyğun apardığı siyasi xətt Azərbaycan dövlətçiliyinin inkişafına, eyni zamanda ölkənin milli maraqlarının müdafiəsinə və iqtisadiyyatın inkişaf etməsinə misilsiz töhfələr verib.

Tədbirdə bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərlinin mövzu ilə bağlı geniş məruzəsi dinlənilib. Məruzədə vurğulanıb ki, Azərbaycan dövlətinin əbədiyaşarlığına, ölkənin hərtərəfli inkişaf etməsinə məhz ümummilli liderin xalqın təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə gəlməsindən sonra nail olunub.

Sonda Təbii Ehtiyatlar İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əliəddin Abbasov və Əlyazmalar Fondunun direktoru, filologiya üzrə elmlər doktoru Fərman Xəlilov mövzu ətrafında çıxış ediblər.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***



*Jurnalistin qeydləri*

# Hər cür təhdid və təhlükəyə qarşı kədərdə və sevincdə bərabərik

*Bir millətik, iki dövlət,*
*Eyni arzu, eyni niyyət,*
*Hər ikisi Cümhuriyyət*
*Azərbaycan-Türkiyə.*

Vətəndaş şairimiz Bəxtiyar Vahabzadənin Azərbaycan - Türkiyə qardaşlığının himninə çevrilən eyniadlı şeirində həm də türkün at üstündə yazdığı şanlı tarixi əks olunub. Bu şeir hər dəfə səslənəndə sanki Oğuzların dastanını yenidən oxuyur, dördnala çapan atların ayaq səsini duyur, qılınclarının qınından necə sürətlə sıyrıldığını hiss edirik...

Çanaqqalada yadellilərə qarşı son damla qanımızacan birgə döyüşürük, 1918-də Araz-Türk Cümhuriyyətini qururuq, Bakını birgə azad edirik, "Moskva" və "Qars"da Naxçıvanın ərazi bütövlüyü və toxunulmazlığı üçün yumruq kimi birləşirik, 1992-ci ildə Sədərəkdə, Araz çayı üzərində "Ümid"lənir, 70 illik həsrətə son qoyaraq ay-



ulduzlu mələklərimizi qoşalaşdırıb əbədi olaraq Ana Yurdun səmalarına ucaldırıq...Bütün beynəxalq tribunalarda Türkiyənin səsi və sözünü Azərbaycandan, Azərbaycanın səsi və sözünü Türkiyədən eşidirik...

*Bir ananın iki oğlu,*
*Bir ağacın iki qolu,*
*O da ulu, bu da ulu,*
*Azərbaycan-Türkiyə.*

**...Tarix: 11 iyun 2019-cu il.**

*Məkan: Naxçıvan, Qarabağlar kəndindəki dağ-təlim mərkəzi...*

İki ölkənin Silahlı Qüvvələrinin "Sarsılmaz qardaşlıq – 2019" birgə döyüş atışlı taktiki təlimləri keçirilir. Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akar öz çıxışında deyir:

*Birdir bizim hər halımız*
*Diləyimiz, amalımız,*
*Bayraqlarda hilalımız*
*Azərbaycan-Türkiyə...*

...Əslində, bu təlimlərdə ən müasir silah və texnikaların, qırıcı təyyarə və helikopterlərin, ağır artilleriyaların döyüş atışlarını izlədikcə istər-istəməz ötən əsrin 90-cı illərini xatırlayıram. "Axırıncı aşırım" filmində Kərbəlayı İsmayılın dediyi kimi, topumuz yox, cəbbəxanamız yox idi... Amma namusumuz, qeyrətimiz vardı... Elə ulu diyar Naxçıvanı da ermən işğalından əliyalın, namusumuz, qeyrətimizlə qorumuşduq...

İndi isə zaman o zaman deyil... Ulu öndər Heydər Əliyevin Naxçıvandan başladığı ordu quruculuğu missiyası uğurla davam etdirilərək müasir mərhələdə ən yüksək həddə gəlib çatıb. Əlahiddə Ümumqoşun Ordu indi nəinki Naxçıvanın müdafiəsini uğurla təşkil edir, hətta ən mürəkkəb hücum və döyüş əməliyyatlarını reallaşdırmağa qadir və hazırdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov da "Sarsılmaz qardaşlıq – 2019" təlimində çıxışı zamanı bu məqamı önə çəkərək dedi: ***"Dövlət başçısı Naxçıvan Muxtar Respublikasının müdafiə qabiliyyətinin möhkəmləndirilməsinə xüsusi diqqət yetirmiş, müasir silah və texnika ilə təminat gücləndirilmiş, bunların nəticəsi olaraq Əlahiddə Ümumqoşun Ordu yaradılmışdır. Bu gün muxtar respublikadakı ordu, hissə və birləşmələr güclü maddi-texniki təminata, müasir silahlara və peşəkar şəxsi heyətə malikdir. Naxçıvanda ordu quruculuğu sahəsində görülən işlərdə Türkiyə Silahlı Qüvvələrinin dəstəyi də qeyd olunmalıdır. Bu gün Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə arasında hərbi sahədəki əməkdaşlığın səviyyəsi məmnunluq doğurur. Naxçıvanda Azərbaycan-Türkiyə birgə hərbi təlimlərinin keçirilməsi də bu əməkdaşlığın davamı, eyni zamanda ordularımız arasındakı birliyin göstəricisidir".***

Bir məqamı xüsusi vurğulamaq lazımdır ki, budəfəki təlimi önəmli edən ən mühüm cəhətlərdən biri də məhz qardaş ölkənin Milli Müdafiə naziri Hulusi Akarın şəxsən Naxçıvana rəsmi səfər etməsi və döyüş atışlı taktiki təlimi izləməsi idi. Yüksək səviyyəli rəsmi şəxslər tərəfindən Naxçıvan Beynəlxalq Hava Limanında qarşılanan Hulusi Akar xalqımızın ümummilli lideri Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsini və Heydər Əliyev Muzeyini ziyarət etməklə ulu öndərə özünün, eləcə də Türkiyə dövləti və xalqının böyük hörmət və ehtiramını ifadə etdi. Ali Məclisin Sədri ilə görüşdə Naxçıvana səfərini və göstərilən qonaqpərvərliyi yüksək dəyərləndirərək dedi ki, Naxçıvan qədim tarixi və müasir inkişafı ilə tamamilə fərqli bir məkandır. Burada olmaqdan böyük məmnunluq duyur və özümüzü doğma vətənimizdəki kimi hiss edirik. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin də dediyi kimi, Naxçıvanda ***"Bir millət, iki dövlət"*** olduğumuzun bir daha şahidi olduq.

Hulusi Akarın Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını Ali Məclisin Sədrinə çatdırması bir daha göstərdi ki, Naxçıvan Muxtar Respublikası ilə ötən illərdə qurulub uğurla inkişaf etdirilən qarşılıqlı faydalı əməkdaşlıq ölkələrimiz arasındakı strateji tərəfdaşlığın ən mükəmməl nümunəsi kimi yüksək siyasi dairələrdə də böyük məmnunluq doğurur. Ona görə də Hulusi Akar dedi: ***"Naxçıvanın inkişafı qardaş ölkədə məmnunluqla qarşılanır".***

Əlbəttə, heç bir təlim və ya vəzifənin icrası göstəri və yaxud süni reytinq xatirinə yerinə yetirilmir. Kifayət qədər maddi-texniki gücün sərf edildiyi, vəsait və canlı qüvvənin cəlbi ilə həyata keçirilən bu cür təlimlər konkret məqsədlərə hesablanır. "Sarsılmaz qardaşlıq – 2019" təliminin də keçirilməsində əsas məqsəd qərargahların müştərək döyüş əməliyyatları planlarının hazırlanması, şəxsi heyətin peşəkarlıq səviyyəsinin artırılması və birgə tapşırıqları icra etmək vərdişlərinin inkişaf etdirilməsi ilə Azərbaycan və Türkiyə hərbi bölmələrinin qarşılıqlı fəaliyyətini koordinasiya etməkdən ibarət idi.

Əvvəlcədən peşəkar formada hazırlanmış təlim-əməliyyat planı, dağ-təlim mərkəzlərində bundan əvvəl dəfələrlə keçirilən əsgəri döyüş atışları və məşğələlər Əlahiddə Ümumqoşun Ordunun şəxsi heyətini bu cür məsuliyyətli tapşırıqların icrasında müntəzir dayanmağa sövq edib. Əlahiddə Ümumqoşun Ordunun və Naxçıvan Muxtar Respublikasının güc strukturlarının, eləcə də Türkiyə Respublikası Silahlı Qüvvələri bölmələrinin iştirakı ilə keçirilən təlimdə 5 minə yaxın şəxsi heyət iştirak edirdi. 200-dən artıq tank və digər zirehli texnikanın, 180-ə yaxın müxtəlif çaplı raket və artilleriya qurğusunun, yaylım atəşli reaktiv sistemləri və minaatanların, 21 təyyarə, helikopter, pilotsuz uçuş aparatı, silahlanmaya yeni daxil edilmiş müxtəlif növ müasir silah və texnika nümunələrinin, 30-dan çox hava hücumundan müdafiə vasitəsi və 300-ə yaxın avtomobil texnikasının təlimə cəlb edilməsi də çox mətləblərdən xəbər verir...

Təbii ki, söhbət təkcə sadalanan ən müasir silah və texnikaların Naxçıvan ordusunun arsenalında cəmləşməsindən getmir. Ən önəmli cəhət odur ki, ötən bu illər ərzində Ali Məclis Sədrinin gündəlik diqqət və tələbkarlığı, birbaşa tapşırıq və tövsiyələri ilə ən müasir hərbi texnikaları, döyüş maşınlarını və hərbi aviasiya vasitələrini idarə edən, on-





ları döyüşə hazırlayan personal, peşəkar zabit-gizirlər hazırlanıb. Ona görə də Naxçıvanda keçirilən bütün taktiki və döyüş əməliyyatlarının icrası ilə müşayiət edilən təlimlər uğurla başa çatır. Bu təlimlərin nəticəsini isə biz real müharibə və döyüş şəraitində də əyani görürük. Necə ki bir il bundan əvvəl Əlahiddə Ümumqoşun Ordu uğurla hazırlanmış əməliyyat planını peşəkarlıqla icra edərək Şərur rayonunun 1992-ci ildən işğal altına düşən Günnüt kəndini və ümumilikdə, 11 min hektar ərazini nəzarətə götürdü və Şərur-Sədərək istiqamətindəki birinci eşalon bölmələrində öz mövqelərini xeyli möhkəmləndirdi.

Əldə edilən bu mühüm hərbi nəticələrdən yola çıxaraq deyə bilərik ki, heç şübhəsiz, bu dəfə keçirilən təlimlərin də real nəticələrini biz qarşıdakı dönəmlərdə görəcəyik. Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akarın təbirincə desək: *"Regional təhdidlərin artdığı bir dövrdə ölkələrimizin və xalqlarımızın təhlükəsizliyini təmin etməyin yolu güclü və mübariz orduya sahib olmaqdan keçir. Güclü ordu üçünsə müasir silah və texnika, həmçinin peşəkar hərbçilər lazımdır. Peşəkar hərbçilərin yetişdirilməsinin ən optimal yolu təlimlərin keçirilməsidir. Təlimlərdə əsgər və zabitlərin ərazi və hava şərtləri ilə tanış olması döyüşə hazırlıq baxımından çox əhə-*



*miyyətlidir. Çünki şəxsi heyət döyüş həmlələrini təlimlərdə öyrənir. Xüsusilə müştərək və birləşmiş təlimlər bir-birimizi tanımamıza, çiyin-çiyinə mübarizə aparmağımıza böyük dəstək verir. Dostluq və birgə əməkdaşlıq çərçivəsində icra etdiyimiz "Sarsılmaz qardaşlıq – 2019" təliminin layiqli şəkildə məqsədinə çatdığının və böyük müvəffəqiyyətlə yerinə yetirildiyinin şahidi olduq. İki dövlətin bir millət, bir ordu olduğunda nələr edə biləcəyinə bu təlim bir nümunədir. Mustafa Kamal Atatürkün də dediyi kimi: "Azərbaycanın sevinci bizim sevincimiz, Azərbaycanın kədəri bizim kədərimizdir". Qardaş ölkə Azərbaycan və Türkiyə hər cür təhdid və təhlükəyə qarşı kədərdə və sevincdə bərabərdir".*

***"Ordunun gücünü və döyüş qabiliyyətini yalnız maddi-texniki baza və silah təminatı deyil, həm də şəxsi heyətin vətənpərvərliyi və birliyi artırır. O ordu güclüdür ki, onun əsgər və zabitlərində vətənpərvərlik və birlik olsun. Keçirilən təlimdən çıxan nəticə də ondan ibarətdir ki, bir millətin, iki dövlətin silahlı qüvvələrində yüksək vətənpərvərlik və birlik vardır"***, – deyən Ali Məclisin Sədri cənab Vasif Talıbov hərbi təlimin uğurla başa çatması münasibətilə şəxsi heyətləri təbrik etdi, hərbi təlimin hazırlanmasında əməyi olanlara təşəkkürünü bildirdi.

Qısaca demək olar ki, hazırlanmış ssenariyə uyğun Türkiyə Respublikası Silahlı Qüvvələrinin təlimə cəlb olunan heyəti ilə Naxçıvan Qarnizonu Qoşunlarının şəxsi heyəti arasında bölmələrin birgə idarə edilməsində vahid prosedurların tətbiqinə nail olundu və hədəflərin 85, maketlərin 90 faizindən çoxu məhv edildi. Nəticədə isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov, Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akar və Azərbaycan Respublikasının Müdafiə naziri, general-polkovnik Zakir Həsənov təlimdə fərqlənən zabit, gizir və əsgərləri qiymətli hədiyyələrlə mükafatlandırdılar və yenə də əsgərlərimiz "Hamı bir nəfər, bir nəfər hamı üçün" şüarının sədaları altında birlik və qardaşlıq mesajı verdilər.

Bu günlər Naxçıvanda təşkil edilən bu cür mötəbər tədbirlər bir daha təsdiq etdi ki, qədim diyarın quruculuq və inkişafında hərbi quruculuq da müstəsna yer tutur. Məhz Hulusi Akarın iştirakı ilə Kəngərli rayonunun Qıvraq qəsəbəsindəki hərbi hissədə zabit-gizir ailələri üçün yeni yaşayış binasının, hərbçi ailələri və sakinlər üçün yeni istirahət parkının istifadəyə verilməsi də bu istiqamətdə həyata keçirilən ardıcıl və sistemli tədbirlərin nəticəsi idi.

Təlimin və keçirilən açılış tədbirlərinin ümumi nəticəsini isə belə səciyyələndirmək olar:

***Birincisi***, blokada şəraitində yaşayan Naxçıvan 90-cı illərin Naxçıvanı deyil. İndi modern və güclüdür. Həm iqtisadiyyatı, həm də ordusu ilə;

***İkincisi***, Xalq-Dövlət-Ordu birliyinin ən real nümunəsini bu diyarın timsalında aydın görmək olar: Hamı bir nəfər, bir nəfər hamı üçündür;

***Üçüncüsü***, peşəkarlıq və ondan da vacib olan vətənpərvərlik ruhu ordumuzun şəxsi heyətində vardır;

***Dördüncüsü***, Azərbaycan-Türkiyə dostluq və qardaşlığının sərhədi yoxdur! Anca bərabərik, qanca da həmişə bərabər olacağıq! Bu təlim dostlarımıza sevgimiz, düşmənlərimizə ortaq mesajımızdır.

***Beşinci məqamı***, elə yazını da Xalq şairimiz Bəxtiyar Vahabzadə tamamlasın:

*Ana yurda yuva qurdum*
*Ata yurda könül verdim*
*Ana yurdum, ata yurdum*
*Azərbaycan-Türkiyə.*

*Dinimiz bir, dilimiz bir*
*Ayımız bir, ilimiz bir*
*Eşqimiz bir, yolumuz bir*
*Azərbaycan-Türkiyə!!!*

***P.S. Yeri gəlmişkən, Türkiyə Milli Müdafiə nazirinin Naxçıvana səfərinə və burada keçirilən "Sarsılmaz qardaşlıq – 2019" təliminə Azərbaycan, eləcə də Türkiyə və bir sıra dünya ölkələrinin mediası geniş yer verib. Təlimların uğurla başa çatdığı qeyd olunub, Naxçıvan televiziyasının təlimlərdən hazırladığı videomateriallar sosial şəbəkələrdə geniş paylaşılıb.***

**Sahil TAHİRLİ**
*jurnalist*
*"Nuhçıxan" İnformasiya Agentliyi*
*12 iyun 2019-cu il*

***Tanrı öz bəndələrinə qəribə tale, ruzi, ömür payı, alın yazısı verib. Birinə yüksək mənəviyyat, əxlaqi keyfiyyət, digərinə zəka və idrak bəxş edib. Kimisinə isə bu məziyyətlərlə yanaşı, əllərinə şəfa, ürəyinə təpər də verir ki, insanların sağlamlığı keşiyində dayansın. Elə bugünkü müsahiblərim də çox insanlara şəfa, naümid gözlərə ümid, nigaran baxışlara sevinc bəxş edən bu nəcib peşənin sahibləridir. Müsahiblərimi birləşdirən başlıca ortaq dəyər isə onların muxtar respublikamızda səhiyyə və tibbi təhsilin inkişafına göstərilən yüksək diqqət və qayğıdan bəhrələnərək peşəkar mütəxəssis kimi formalaşmalarıdır. Müsahiblərimlə söhbətə keçməzdən əvvəl onların ali təhsil aldıqları Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsi haqqında bir neçə kəlmə…***

# Harada həkim varsa, orada ümid var

Tibb fakültəsi Naxçıvanın blokada şəraitində olması nəzərə alınaraq tibbi kadrlara tələbatın ödənilməsi məqsədilə 1999-cu ildə yaradılıb. O dövrdə bir ixtisasla fəaliyyətə başlayan fakültə ötən müddətdə inkişaf edərək hazırda həm bakalavr, həm də rezidentura təhsili üzrə həkim hazırlığı həyata keçirir. Bu gün fakültənin müasir xəstəxanası tələbələrin nəzəri və praktik biliklərinin təkmilləşdirilməsində müstəsna rol oynayır. Muxtar respublikamızda fəaliyyət göstərən bütün xəstəxanalarda tələbələrin təcrübə keçmələrinə hər cür şərait yaradılıb. Tibb sahəsi üzrə yüksəkixtisaslı kadrlar hazırlamaq və dünya tibb elminə daha sıx inteqrasiya etmək üçün universitet qonşu Türkiyə və İranın universitetləri ilə sıx əlaqələr qurub.

Bütün bunlar universitetin və fakültənin beynəlxalq nüfuzunu artırmaqdadır. Əgər bir vaxtlar naxçıvanlı məzunlar tibb təhsili almaq üçün respublikamızın və dünyanın ali məktəblərinə üz tutmaq məcburiyyətində qalırdılarsa, bu səbəbdən gələcəyin peşəkar həkimləri ola biləcək çoxları bu istəyindən imtina etməli olurdusa, bu gün muxtar respublikada tibb təhsili üçün yaradılan unikal şərait xarici ölkə vətəndaşlarının da buraya olan marağını günbəgün artırır. Belə ki, yeni tədris ilindən fakültədə 300 xarici ölkə vətəndaşı təhsil alacaq.

"Xalqın müqəddəs saydığı, inanıb, etibar etdiyi həkim adını daşımaq olduqca şərəfli və məsuliyyətlidir", – deyən ***Zəbur Bağırov Naxçıvan Muxtar Respublika Xəstəxanasının baş həkimi*** kimi məsuliyyətli bir işi yerinə yetirməklə bərabər,



gənc olmasına baxmayaraq, sayılıb-seçilən uroloqdur. O, Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsini 2009-cu ildə bitirib: – Nənəm böyrək xəstəliyindən əziyyət çəkərdi və tez-tez müalicə üçün paytaxt Bakıya, ya da qonşu dövlətlərə üz tutardı. Bu ixtisası seçməyimin səbəbi peşəkar uroloq olub, şəfa tapmaq üçün başqa yerlərə üz tutan insanlara öz doğma yurdumuzda kömək etmək istəyi olub. Naxçıvanda ali təhsilimi uğurla başa vurmaqla yanaşı, Ali Məclis Sədrinin xüsusi tapşırığı ilə qardaş Türkiyə Respublikasında internatura, Urologiya ixtisası üzrə uzmanlıq təhsili almışam.

Həkim deyir ki, hələ tələbə vaxtı xəstəxananın gecə növbəsində çalışdığım ilk gündən dərk etmişəm ki, hər dəqiqə qəfil gecə zənglərinə, qəfil hadisələrə hazır olmalısan. Lazım gələrsə, lap piyi-piyada da olsa, hökmən getməlisən. Axı orada həkimi nigarançılıqla, həyəcan hissi ilə gözləyən var. İxtisasından asılı olmayaraq bir həkim kimi insan sağlamlığının keşiyində dayanmalısan. Vətəni qoruyan sadiq, inamlı əsgər kimi...

Zəbur həkim onu da bildirir ki, bu günə kimi onlarla xəstə üzərində əməliyyat aparıb. Bunların arasında ikiyaşlı uşaq da var, 94 yaşlı qoca da. Elə vaxt olub ki, əməliyyat 6-8 saat çəkib. Amma yaxınlarına əməliyyatın uğurlu keçdiyini demək ona bu saatlar boyunca çəkdiyi çətinlikləri unutdurub.

Xəstəxananın ***Şüa diaqnostika şöbəsinin həkim-radioloqu Heyran Əliyeva*** isə bu ali təhsil ocağını 2007-ci ildə fərqlənmə diplomu ilə bitirib:



– Həkim olmaq istəyim orta məktəb illərindən var idi. Amma bunun üçün Bakıya getməli və orada təhsil almalı idim. Mən isə ailəmdən uzaqda yaşamaq istəmirdim. Naxçıvanda Tibb fakültəsinin açıldığını eşidəndə çox sevindim. Bu istəyimi reallığa çevirmək üçün əzmlə çalışdım və ali məktəbə qəbul oldum. Xəstələrin keçirdikləri əzab-əziyyətləri, ruhi sarsıntıları duymaq, onun səbəblərini aşkar etmək üçün bu peşəni özümə həyat yolu seçdim. Bu gün bu yolda yorulmadan irəliləyir, yenilikləri öyrənir və muxtar respublika sakinlərinin sağlamlığının keşiyində dayandığım üçün qürur duyuram. Mən deyərdim ki, həkim olmaq, insanların sağlamlığının qayğısına qalmaq və müasir avadanlıqların köməyi ilə düzgün diaqnoz qoymaqla kimisə xilas etmək qədər gözəl heç nə yoxdur.

Heyran həkim deyir ki, radiologiya son illərdə çox inkişaf edib. Onun imkanlarından istifadə edərək vaxtilə çətin aşkarlanan xəstəliklərə də daha dəqiq diaqnoz qoymaq mümkündür. Bir vaxtlar bu tibbi avadanlıqların heç biri muxtar respublikamızın səhiyyə müəssisələrində yox idi. Ötən illər ərzində bu sahənin inkişafı, səhiyyə ocaqlarımızın müasir tibbi avadanlıqlarla təchiz olunması son tibbi müayinə üsullarının tətbiqinə, xəstəliklərin vaxtında aşkarlanıb qarşısının alınmasına geniş imkanlar açıb. Artıq muxtar respublika sakinlərinin bir sıra mühüm müayinələrə görə digər yerlərə getmələrinə ehtiyac qalmayıb.

***Naxçıvan Diaqnostika Müalicə Mərkəzinin həkimi, kardioloq-angioqraf, bu sahə üzrə Türkiyə Respublikasının müxtəlif tibb universitetlərində xüsusi kurs keçmiş Nail Mehbaliyev*** də Naxçıvan Dövlət Universitetinin yetişdirdiyi həkimlərdəndir.



Onunla çətin olsa da, uğurlu keçən əməliyyatın ardından həmsöhbət olduq: – Həkimlik rahatlıq sevənlərin sənəti deyil, gecəsi, gündüzü bilinməyən peşədir. Amma nə qədər əzablı-əziyyətli olsa da, sonu şərəflidir. İşin sonunda bilirsən ki, kimi isə sevindirmisən, xeyirxahlıq etmisən. Belə məqamlarda keçirdiyin həyəcan da, əziyyətlər də insanın gözünə görsənmir. Həkim işlədiyim vaxtlardan bu günə kimi belə məqamlarla çox rastlaşmışam. Nigaran baxışlar, narahat ürəklərə təsəlli vermək, o baxışlardakı nigarançılığı, narahatlığı sevincə çevirmək mənə görə dünyanın ən böyük xoşbəxtliyidir.

O qeyd edir ki, bu gün muxtar respublikanın səhiyyə sahəsi dövlət qayğısı ilə əhatə olunub. Müxtəlif ölkələrə dövlət tərəfindən təkmilləşdirmə kurslarına göndəririlik. Bundan əlavə, işlədiyimiz xəstəxanalar ən müasir avadanlıqlarla təmin olunub.

Digər müsahibim ***Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının baş həkiminin müavini İlkay Əliyeva*** deyir ki, doğma diyarımızda bütün sahələrlə yanaşı, tibbi kadrların hazırlığına göstərilən qayğıdan mənim kimi çoxları bəhrələnib. Fakültədə mükəmməl təhsil almaqla yanaşı, Türkiyə və İrandakı universitetlərin Tibb fakültələrində, xəstəxanalarında ixtisas təcrübələrində iştirak etməklə bu peşənin sirlərinə dərindən bələd olmuşam.



İlkay Əliyeva onu da deyir ki, 2012-ci ildə Pediatriya ixtisasını fərqlənmə diplomu ilə bitirib rezidenturaya daxil olub, 2014-cü ildə buranı müvəffəqiyyətlə başa vurduqdan sonra Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasında fəaliyyətə başlayıb.

Allahın ən gözəl hədiyyəsi də, sınağı da övladdır. Hər bir valideyn övladının qayğısına qalır, onun xəstə olmaması üçün əlindən gələni edir. Amma bəzən ata və ananın qayğısı, diqqəti uşaqlarımızı xəstəliklərdən uzaq tutmağa kömək edə bilmir. Mən də anayam və övladımın sağlamlığını etibarlı əllərə əmanət etmək, təbii ki, ən böyük arzumdur. Bu gün yaradılan müasir şərait də həkim və tibb bacılarının işinin daha da keyfiyyətli olmasına imkan verir. Çalışdığım xəstəxananın müasir tibbi avadanlıqlarla təchiz edilməsi, bu avadanlıqlarla diaqnozların dəqiq qoyulması, müayinə və müalicələrin səmərəli aparılması üçün bizə insan sağlamlığını qorumaq kimi mühüm və xeyirxah missiyanı uğurla həyata keçirməyə şərait yaradır. Dövlətimizin biz həkimlər üçün yaratdığı imkanlardan geniş istifadə etməyə çalışır, öhdəmə düşən işləri yüksək səviyyədə yerinə yetirməyə daim böyük səy göstərir, praktik fəaliyyətimi elmi axtarışlarla əlaqələndirirəm.

Gənc həkimin də həmmüəllifi olduğu "Məktəblərdə və bağçalarda tibbi xidmətin təşkili" adlı metodik vəsait və "Dölün və yenidoğulmuşun hemolitik xəstəliyi" adlı irihəcmli dərs vəsaiti maraqla qarşılanıb. 2018-ci ildən Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin dissertantı olan İlkay həkim onu da diqqətimizə çatdırdı ki, hazırda "tibb elmləri üzrə fəlsəfə doktoru" alimlik dərəcəsi almaq üçün dissertasiya üzərində çalışır.

Bugünkü müsahiblərim ötən illərdə Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsini bitirən və diyarımızın səhiyyə ocaqlarında insanların sağlamlığının keşiyində dayanan onlarla həkimdən bir neçəsi idi. Vaxtilə onların təhsil aldıqları Tibb fakültəsinin köhnə korpusunun əsaslı şəkildə yenidən qurulması artıq tamamlanmaqdadır. Yeni tədris ilindən tələbələrin yüksək maddi-texniki təchizata malik, müasir fənn laboratoriyaları olan binada təhsil almaları, heç şübhəsiz ki, bilikli və təcrübəli gənclərin yetişdirilməsinə öz töhfəsini verəcək.

Düşünürəm ki, ulu torpağın hər bir sakini özünü xoşbəxt hesab edir. Ona görə ki, sağlamlığımızın keşiyində doğma universitetimizin yetişdirdiyi həkimlər dayanır.

✍ **Ramiyyə ƏKBƏROVA**

## Federasiyaların yeni sədrləri seçilib

***İyunun 13-də Naxçıvan Muxtar Respublika Stadionunda Naxçıvan Muxtar Respublikası Futbol Federasiyasının iclası keçirilib.***



Yığıncağın gündəliyində Naxçıvan Muxtar Respublikası Futbol Federasiyasının fəaliyyəti, görülən işlər, eləcə də federasiyanın yeni sədrinin seçilməsi olub.

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman naziri Azad Cabbarov açaraq bildirib ki, muxtar respublikada bütün sahələrdə olduğu kimi, idman sahəsində də mühüm işlər görülür. Yaradılan şəraitdən səmərəli istifadə edən gənclərin idmana marağı artıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı nəticəsində bu sahənin maddi-texniki bazası möhkəmləndirilib. İdmana göstərilən davamlı dövlət qayğısı nəticəsində muxtar respublikada futbolun inkişafı üçün əlverişli şərait yaradılıb. Belə ki, şəhər və rayonlarla yanaşı, kəndlərimizdə də müasir stadionlar tikilərək istifadəyə verilib, uşaq, yeniyetmə və gənclərin bu sahəyə cəlb edilməsi istiqamətində bir sıra tədbirlər həyata keçirilib.

Vurğulanıb ki, buna baxmayaraq, Futbol Federasiyası işini günün tələblərinə uyğun qurmayıb, yaradılan şəraitdən düzgün istifadə etməyi bacarmayıb. Federasiya Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin muxtar respublikada fəaliyyət göstərən idman federasiyalarına verdiyi tapşırıqlardan nəticə çıxarmayıb, muxtar respublikanın şəhər və rayonlarında uşaq futbol komandaları və bölmələri, hakimlər briqadası yaradılmayıb. Eyni zamanda uşaq çempionatları keçirilməyib, muxtar respublikada təşkil edilən yarışlar keyfiyyət və təşkilatçılıq baxımından aşağı səviyyədə olub.

Sonra rayonlarda fəaliyyət göstərən futbol məşqçilərinin fikirləri dinlənilib. Çıxışlar zamanı məşqçilər uşaq, eləcə də yeniyetmə və gənclər arasında futbolun inkişafı üçün atılacaq addımları müzakirə ediblər.

Çıxışlardan sonra Gənclər və İdman naziri Azad Cabbarovun Naxçıvan Muxtar Respublikası Futbol Federasiyasının sədrliyinə namizədliyi irəli sürülüb. Təklif yekdilliklə qəbul olunub və o, federasiyanın sədri seçilib.

Yeni seçilən sədr çıxış edərək Futbol Federasiyasının bundan sonrakı fəaliyyətinin günün tələbləri səviyyəsində qurulacağını, uşaq, yeniyetmə və gənclərin bu idman növünə cəlbinə diqqətlə yanaşılacağını vurğulayıb, yaradılan şəraitə görə Ali Məclis Sədrinə minnətdarlığını bildirib.

Sonda Futbol Federasiyasının qərar layihəsi oxunub və təsdiq olunub.

* * *

***Naxçıvan Muxtar Respublikası Kikboksinq Federasiyasının iclası keçirilib.***



İclasda çıxış edən muxtar respublikanın Gənclər və İdman naziri Azad Cabbarov bildirib ki, yarandığı gündən federasiyanın əsas fəaliyyət istiqaməti muxtar respublikada gənclərin vətənpərvərlik ruhunda və sağlam mühitdə formalaşdırılması, bu növ üzrə idmançı və məşqçi heyətinin hazırlığının daha da gücləndirilməsindən ibarət olub. Bu sahədə peşəkarlığın artırılması və muxtar respublika idmançılarının ölkə və beynəlxalq miqyaslı idman yarışlarında iştirakının təmin edilməsi də federasiyanın daim diqqət mərkəzində olub. Bu idman növünün muxtar respublikada kütləviliyi, yeniyetmə və gənclərin idman bölmələrinə cəlbi istiqamətində məqsədyönlü iş aparılıb, komandalar formalaşdırılıb, idmanın bu sahəsi üzrə kütləviliyin təmin edilməsi məqsədilə çoxsaylı tədbirlər həyata keçirilib. Yeni yaranmasına baxmayaraq, federasiya artıq bir neçə beynəlxalq və respublika səviyyəli yarışlarda iştirak edib, idmançılar uğurlu nəticələr qazanıblar.

Sonra məşqçi-müəllimlərin fikirləri dinlənilib, keçirilən yarışların nəticələri müzakirə olunub.

Çıxışlardan sonra federasiyaya yeni sədr təyin olunub. Belə ki, məşqçi Xəyal Abdullayev Kikboksinq Federasiyasının yeni sədri seçilib. Gənclər və İdman naziri Azad Cabbarov federasiya sədrinə fəaliyyətində uğurlar arzulayıb, bu sahənin inkişafı istiqamətində nazirliklə əməkdaşlığın davam etdiriləcəyinə əminliyini ifadə edib.

Kikboksinq Federasiyasının sədri Xəyal Abdullayev muxtar respublikada idmana və idmançılara göstərilən diqqət və qayğıya görə Ali Məclisin Sədrinə minnətdarlıq edərək bildirib ki, federasiya bundan sonrakı fəaliyyətini günün tələbləri səviyyəsində quracaq.

✍ **Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Naxçıvan şəhər sakini Rzayeva Səriyyə Abbas qızının adına olan MH-0030579 nömrəli çıxarış və 104013006893 reyestr nömrəli torpaq sahəsinin plan və ölçüsü itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 402